Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

MARCOM 360
MARKETING | CONSULTING | ADVERTISING

# LİFSİZ PAMBIQ TOXUMUNUN EMALI MÜƏSSƏSİNİN YARADILMASI

**Bazar Araşdırması Təqdimatı**

# MÜNDƏRİCAT


DÜNYA ÜZRƏ PAMBIQ İSTEHSALI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 4

AZƏRBAYCANDA PAMBIQÇILIQ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8

TOXUMLUQ ÜÇÜN OLAN PAMBIQ ÇİYİDİNİN DÜNYA ÜZRƏ İDXAL VƏ İXRACI . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13

TOXUMLUQ ÜÇÜN OLAN PAMBIQ ÇİYİDİNİN AZƏRBAYCANA İDXAL VƏ İXRACI . . . . . . . . . . . . . . . . . . . . . . . . 18

PAMBIQ TOXUMU HAQQINDA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .22

FERMERLƏRLƏ DƏRİNLƏŞDİRİLMİŞ SORĞULAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30

BAZAR HƏCMİ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37

NƏTİCƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40

# METODOLOGİYA

**Lifsiz pambıq toxumunun becərilməsi üzrə araşdırmada aşağıdakı metodologiyalardan istifadə edilmişdir:**

**Masaüstü araşdırma**

- Statistik məlumatlar
- Beynəlxalq təşkilatların məlumatları
- KİV və digər mənbələrdə məqalələr
- Ekspert fikirləri

**Dərinləşdirilmiş (İn-depth) intervülər**

- Pambıq toxumu istehsal edən fermerləri ilə
- Toxum satıcıları ilə
- Bazar ekspertləri ilə



# DÜNYA ÜZRƏ PAMBIQ İSTEHSALI



# DÜNYA ÜZRƏ PAMBIQ İSTEHSALI

- **Pambıq, dünyanın 97 ölkəsində istehsal edilir. Bu ölkələr əsasən subtropik və tropik zonalarda yerləşir.**
- **Son 10 ildə dünya üzrə pambıq istehsalı 24% artmışdır. Artım bütün pambıq yetişdirilən ölkələr üzrə baş vermişdir.**
- **2020-ci ildə 60 mln. tondan artıq pambıq istehsal edilmişdi.**
- **Pambığı dünyanın 177 ölkəsi idxal edir. Hal hazırda dünya üzrə pambıq istehlak həcmləri, onun istehsal həcmindən çoxdur və bazarda defisit var.**
- **Pambıq sürətli iqtisadi inkişafa imkan yaradan aqrar məhsul hesab edilir. Hindistan, ABŞ və Çin-in iqtisadi inkişafında pambıqçılığın rolu əhəmiyyətli dərəcədədir.**
- **Pambıq istehsal edən ölkələr (ABŞ xaric) özləri istehsal etdiyi pambığı emal edirlər. Onlar emal üçün hətta pambıq idxal da edirlər. Bu səbəbdən daha çox ixracatçı ölkə ABŞ hesab edilir.**

# PAMBIĞIN İSTEHSALI







**Əsas istehsalçılar Hindistan (25%), Çin (22%) və ABŞ-dır (16%).**

# QLOBAL BAZARDA PAMBIQ LİFİ VƏ PAMBIQ İPLİYİNİN İDXALI




**Pambıq lifi ixracında ABŞ (40%), Braziliya (18%), Hindisan (8%), Avstraliya (6%) və Yunanıstan (4%) ilk beşlikdədir.**

**Pambıq ipliyi ixrac edən əsas ölkələr Hindistan (23%), Vyetnam (22%), Pakistan (10%), Özbəkistan (9%) və ABŞ-dır (9%).**

# AZƏRBAYCANDA PAMBIQÇILIQ



# AZƏRBAYCANDA PAMBIĞIN ƏKİN SAHƏSI



# AZƏRBAYCANDA PAMBIQ İSTEHSALI




**2020-ci ildə pambıq istehsalı 2015-ci ilə nisbətən 9.6 dəfə, 2019-cu ilə nisbətən isə 14.1% artaraq 336.8 min ton olub.**

# AZƏRBAYCANDA RAYONLAR ÜZRƏ PAMBIQ İSTEHSALI






# RAYONLAR ÜZRƏ MƏHSULDARLIQ



# TOXUMLUQ ÜÇÜN OLAN PAMBIQ ÇİYİDİNİN DÜNYA ÜZRƏ İDXAL VƏ İXRACI



# PAMBIQ TOXUMUNUN DÜNYA ÜZRƏ İDXALI






# 2020-Cİ İLDƏ PAMBIQ TOXUMUNUN ÖLKƏLƏR ÜZRƏ İDXALI

| | İDXAL HƏCMİ (TON) | PAYI |
|---|---|---|
| Cənubi Afrika | 12 664,108 | 30% |
| Zimbabve | 12 470,241 | 29% |
| Kanada | 4 774,172 | 11% |
| ABŞ | 4 426,882 | 10% |
| Azərbaycan | 2 455,430 | 6% |
| Seneqal | 2 054,620 | 5% |
| Yunanıstan | 1 221,416 | 3% |
| Malaziya | 1 119,561 | 3% |
| BƏƏ | 808,116 | 2% |
| Digər ölkələr | 716,301 | 2% |

# PAMBIQ TOXUMUNUN DÜNYA ÜZRƏ İXRACI






# PAMBIQ TOXUMUNUN ÖLKƏLƏR ÜZRƏ İXRACI

| | İXRAC HƏCMİ (TON) | PAYI |
|---|---|---|
| ABŞ | 9 203 977 | 38% |
| Türkiyə | 3 289 174 | 14% |
| Malavi | 3 131 510 | 13% |
| İsrail | 2083148 | 9% |
| Özbəkistan | 2 061 710 | 9% |
| Yunanıstan | 1 655 933 | 7% |
| Myanma | 1 181 673 | 5% |
| İspaniya | 353 837 | 1% |
| Malayziya | 311 545 | 1% |
| Toqo | 220 146 | 1% |
| Keniya | 180 588 | 1% |
| Digər ölkələr | 399 606 | 2% |

# TOXUMLUQ ÜÇÜN OLAN PAMBIQ ÇİYİDİNİN AZƏRBAYCANA İDXAL VƏ İXRACI



# PAMBIQ TOXUMUNUN AZƏRBAYCANA İDXALI







**İllər üzrə qiymət analizi onu göstərir ki, 1 kq toxumun qiyməti 2,8 USD -3,1 USD arasında olmuşdur.**

# AZƏRBAYCANA PAMBIQ TOXUMUNUN ƏSAS İDXALÇILARI

| ŞİRKƏTİN ADI | YERLƏŞMƏ | VEB SƏHİFƏ |
|---|---|---|
| Agrovita MMC | Bakı | http://www.agrovita.az |
| Aqromarket Servis MMC | Abşeron | http://www.agromarket.az |
| AZSEEDS MMC | Baki | http://www.azseeds.az |
| Bio Gold Tarım MMC | Bakı | http://www.biogoldtarim.com |
| Gilan Dairy Farms MMC | Qəbələ | https://www.gilanholding.com/ |
| Moran Agro MMC | Bakı | http://www.moran.az |
| Ümid Az?rbaycan MMC | Baki | http://www.umid-az.az |

# PAMBIQ TOXUMUNUN AZƏRBAYCANDAN İXRACI

- Azərbaycan pambıq toxumunu heç bir ölkəyə ixrac etmir
- Dünya üzrə pambıq toxumunun 6% idxalı Azərbaycanın payına düşür
- Azərbaycan pambıq toxumunu iki ölkədən idxalı edir. Bu ölkələr Türkiyə və Yunanıstandır. Ancaq Azərbaycana olan idxalın 90% dən çoxu Türkiyənin payına düşür.

# PAMBIQ TOXUMU HAQQINDA



# TOXUMÇULUĞUN ƏSAS VƏZİFƏSİ

**Müəyyən edilmişdir ki, pambıq toxumlarından elit toxumlar əldə edilmədən uzun illər ərzində səpilərsə, eyni zamanda toxumçuluğun qaydalarına əməl olunmazsa, sort öz təbii xassəsini itirir və cırlaşır.**

**Bu proses, sortların mexaniki və bioloji qarışması və s. amillər əsasında baş verir.**

**Pambıq toxumçuluğunun əsas məsələləri aşağıdakılardan ibarətdir:**

1. Yeni və rayonlaşdırılmış pambıq növləri üçün cins toxumlarının çoxaldılması;
2. Yeni rayonlaşdırılmış növlərdə yüksək keyfiyyəti və lifin texnoloji xassəsini saxlamaq;
3. Yeni pambıq növləri üzərində işləmək və təbii keyfiyyətini yaxşılaşdırmaq;
4. Növ təzələmə və dəyişmə (bütün təsərrüfatları yüksək keyfiyyətli növ toxumlarla təmin etmək). `

**Maddə 7. Toxumluq pambıq istehsalı (2010-cu il 11 may tarixli, 1012-IIIQ nömrəli Qanun)**

**7.1. Qanunvericilikdə nəzərdə tutulmuş qaydada toxum istehsalçılarının reyestrinə daxil edilmiş hüquqi və fiziki şəxslər pambıq toxumunun istehsalı ilə məşğul ola bilərlər.**

**7.2. Toxumluq pambıq istehsalı qanunvericiliyə uyğun olaraq orijinal, super elit, elit və reproduksiyalı toxumlar istehsalından ibarətdir.**

**7.3. Orijinal və super elit toxumluq pambıq qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq elmi-tədqiqat və təhsil müəssisələrinin təcrübə təsərrüfatlarında yetişdirilir, ayrılıqda yığılır, emal sexlərində çiyid lifdən ayrılaraq təlimata uyğun saxlanılır və alınan toxum artırılmaq üçün müvafiq qaydada istifadə olunur.**

**7.4. Elit toxumluq pambığın maşın-mexanizmlərlə yığılmasına yol verilmir.**

**7.5. Elit və reproduksiyalı toxumluq pambıq istehsalı ixtisaslaşdırılmış dövlət və özəl toxumçuluq təsərrüfatlarında həyata keçirilir, pambıq emalı müəssisələrində emal edilir və əldə edilən toxum təkrar toxumluq və ya texniki pambıq istehsalını təmin etmək üçün istifadə olunur. Toxumluq üçün yaramayan çiyiddən toxum kimi istifadə edilməsinə yol verilmir.**

**7.6. Rayonlaşmamış və gətirilmə pambıq sortlarının toxumu yalnız təcrübə və sınaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının nəzarəti altında əkilə bilər.**

**7.7. Texniki pambıq istehsal edən təsərrüfatların istifadəsi üçün nəzərdə tutulan toxumluq pambıq emalı müəssisəsində ayrı yığılaraq emal edilir və alınan toxumluq çiyid toxum üçün istifadə olunur.**

**7.8. Toxumluq pambığın və toxumun səpin keyfiyyətinin qiymətləndirilməsi, sertifikatlaşdırılması, toxumçuluq şəbəkəsinin təşkili və pambıq toxumçuluğu ilə bağlı digər məsələlər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.**

**7.9. Toxumluq pambıqdan alınan mahlıc, tiftik (lint) və lifli tullantılar təyinatına uyğun qaydada istifadə olunur.**

# PAMBIQ TOXUMUNUN QANUNVERİCLİKLƏ NİZAMNLANMASI

**Maddə 12. Toxumluq pambığın alqı-satqısı (2010-cu il 11 may tarixli, 1012-IIIQ nömrəli Qanun)**

**12.1. Toxum istehsalçılarının reyestrinə daxil edilmiş dövlət və özəl toxumçuluq təsərrüfatlarında yetişdirilmiş toxumluq pambıq toxumluq çiyid əldə etmək üçün emal müəssisələrinə tərəflər arasında bağlanmış alqı-satqı müqaviləsi əsasında satılır.**

**12.2. Toxumluq pambığın alqı-satqısı pambıq əkinlərinin aprobasiya nəticələrinə müvafiq olaraq toxumluq pambığın seleksiya sortuna və reproduksiyasına görə müvafiq standartların və digər normativ sənədlərin tələbləri nəzərə alınmaqla həyata keçirilir.**

**12.3. Toxumçuluq təsərrüfatları tərəfindən satılan toxumluq pambığın qiyməti emal nəticəsində əldə edilən toxumluq çiyidin keyfiyyəti əsas götürülməklə alqı-satqı müqaviləsində təsbit olunur.**

**12.4. Toxumluq pambıqdan əldə edilən toxumluq çiyid emal müəssisələrində saxlanılır, səpin kondisiyasına çatdırılır, dərmanlanır və qanunvericilikdə nəzərdə tutulmuş qaydada sertifikatlaşdırılaraq pambıq istehsalçılarına satılır.**

**12.5. Toxumluq pambığın istehsalına, emalına, toxumluq çiyidin saxlanmasına və səpin üçün hazırlanmasına qanunvericiliyə uyğun olaraq dövlət nəzarəti həyata keçirilir.**

# TOXUMÇULUQ SİSTEMİNİN ƏSAS BÖLMƏLƏRİ

**Pambıqçılığın toxumçuluq sistemini bir birləri ilə sıx bağlı beş bölməyə ayırmaq olar:**

1. Yeni pambıq sortlarının əvvəlcədən çoxaldılması;
2. Dövlət sort sınağı;
3. Rayonlaşdırılmış sortların sort təzələnməsi;
4. Toxum fondunun tədarükü. Toxumun səpinə hazırlanması və fermer təsərrüfatlarını səpin materialı ilə təmin etmək;
5. Toxum nəzarət işi.

# PAMBIĞIN SELEKSİYA SORTLARI

- **Azərbaycanda hal hazırda toxumculuq sənayesinin tələblərini ödəyən və maşınla yığıma uyğun yüksək məhsuldar pambıq sortları əkilir.**

- **Azərbaycanda əklilən sortlar: AzNİXİ-195, Gəncə-8, Gəncə-2, Gəncə-78, Gəncə 80,  Gəncə-103, Gəncə-110, Maraş, Antep, Ağ qızıl, Progen, Flora, Pamuk, May-344, May-455.**

- **Bu sortarın əksəriyyətinin məhsuldarlığı 40 sentnerdən yuxarıdır.**

- **Azərbaycanda pambıq əkin sahələrində istifadə edilən pambıq sortlarının 95% lifsiz pambıq sortlarıdır.**

# İSTİFADƏ EDİLƏN PAMBIQ TOXUMLARI

- **Toxumluq çiyid pambıq zavodlarında hommoz və kökçürümə xəstəliklərinə qarşı mübarizə məqsədi ilə dərmanlanır.**

- **Sahələrə görə fərqlər mövcutdur. Belə ki, intensiv metodologiyada sahələr arat olunmalıdır. Arat olunmayan sahələrdə səpin texnologiyası fərqlidir.**

- **Becərilmə əsasən çin intensiv metodları vasitəsi ilə həyata keçirilir.**

# LİFLİ VƏ LİFSİZ TOXUM FƏRQLƏRİ

| | LİFSİZ PAMBIQ TOXUMU | LİFLİ PAMBIQ TOXUMU |
|---|---|---|
| Öncədən isladılma | Ehtiyac yoxdur | Əkindən 12 saat öncə isladılır |
| 1 ha sərfiyyat | 20-25 kq. | 70-80 kq. |
| Səpin | SÇX-4a və ya SPÇ-6M markalı pnevmatik çiyidsəpənlə aparılır | Adi səpin |
| Cərgə arası | Cərgələrin 60 - 90 sm arasında olur | |
| Gübrələmə | Sahəyə verilən gübrələrin normalarını hesablayarkən torpaqda qida maddələrinin miqdarını (təbii münbitlik) və planlaşdırılan məhsuldarlıq nəzərə alınmalıdır. | |
| Pambıq | Pambıq lifi daha çoxdur | Pambıqda çiyid daha çoxdur |

# FERMERLƏRLƏ DƏRİNLƏŞDİRİLMİŞ SORĞULAR



# Toxum alışı 3 üsul ilə həyata keçirilir

<u>**1-ci üsul:**</u>

**Subsidiya aqrokartı ilə alış**

<u>**2-ci üsul:**</u>

**Pambıq zavodlarından nisyə alış**

<u>**3-cü üsul:**</u>

**Xüsusi mağazalardan nağd qiymətə alış**

# TOXUM ALARKƏN NƏYƏ FİKİR VERİRLƏR

**Pambıq toxumu alışında fermerlər aşağıdakı məsələlərə diqqət yetirirlər:**

1. Qiymət
2. Toxumların zədəli olub olmamağı
3. Sortuna və ona göstəriləcək aqrotexniki qulluğun qiyməti
4. Ödəniş şərtləri

# ALIŞ ÜSULLARI




**Pambıq toxumu alışı əsasən Aqroservis və Pambıq zavodlarından həyata keçirilir.**

**Aqroservislərdən daha çox alma səbəbi toxum və ya digər məhsulları subsidiya kimi verilən aqrokartlarla alınmasıdır.**

**Pambıq zavodlarından alarkən toxumlar fermerlərə nisyə verilir, daha sonra fermerlər məhsulu həmin zavoda təhvil verərkən, bütün ödəmələr çıxılır. Toxumla birgə fermerlərə gübrə və digər vasitələrdə nisyə verilir.**

**Nağd qiymətə alış əsasən dövlət tərəfindən subsidiya üçün nəzərdə tutulan vəsaitlər bitəndən həyata keçirilir. Bu cür alış nağd baş verir və qiyməti daha ucuz olur.**

# LİFSİZ TOXUMA OLAN MÜNASİBƏT

**Fermerlər ilkin olaraq lifsiz toxumlara ehtiyatla yanaşırdılar. Ancaq daha sonrakı praktika, dövlət dəstəyi və toxumların effektivliyinin yüksək olması kütləvi olaraq bu tip toxumları səpməyə yönəltdi.**

**Fermerlər bu toxum növü üçün aşağıdakı üstünlükləri qeyd etdilər:**

- **Toxumu səpmədən öncə heç bir əməliyyatın (islatma və s.) aparılmasına ehtiyacın olmaması,**
- **Bu toxumlardan daha çox yüksək keyfiyyətli pambıq əldə etmə imkanı,**
- **Mövcud texnologiyanın və aqronom yardımının olması.**

# LİFSİZ TOXUM SORTLARININ MƏNFİ TƏRƏFLƏRİ

**Fermerlər eyni zamanda bu cür toxumun tətbiqində mənfi tərəflər də görürlər:**

- **Bu toxum növünün xüsusi texnika (vakuum aparatı olaraq adlandırılan) ilə səpilməsi**

- **Əldə olunan məhsulun daha öncə əkilən sortlara nisbətən az olması. Ancaq nəticə olaraq keyfiyyətli və az çiyidli məhsul əldə edildiyi üçün verimlilik yüksəkdir.**

- **Özlərinin bu növ toxumu hazırlamaq imkanlarının olmaması (lifin ayrılması)**

*** Ancaq eyni zamanda onu da qeyd etmək lazımdır ki, mənfi tərəflərinə baxmayaraq bu növ toxumun istifadəsində əngəl görmürlər.**

# BAZARA YENİ OYUNÇUNUN DAXİL OLMASI

**Yeni oyunçunun bazara daxil olmasına müsbət yanaşılır. Hətta bəzi fermerlər qanuna istinad edərək, qeyd etdilər ki, kütləvi halda toxum satılarsa dövlət reyestrindən keçməlidir. Bu isə öz növbəsində güvən yaradır. Yeni satış kanalından məhsulu almaq üçün aşağıdakı şərtlər tələb edilir:**

- **Yeni satıcı ancaq toxum satmamalıdır. Həmin təşkilat eyni zamanda əlavə məhsullarda satmalıdır. Əlavə məhsul kimi gübrə, xüsusi dərmanlar və s. olmalıdır.**
- **Əlavə xidmətlərin göstərilməsi. Səpin üçün avadanlıq, aqronom xidmətləri və s.**
- **Xüsusi maliyyə şərtləri. Subsidiya kartı ilə satış, nisyə satma, çatdırılma və s.**
- **Bazarda güclü və oturuşmuş oyunçu ilə rəqabət aparmaq üçün nisbətən rəqabətli qiymət**

# BAZAR HƏCMİ



# AZƏRBAYCANDA TOXUM BAZARININ HƏCMİ

**AZƏRBAYCANDA PAMBIQ TOXUMU BAZARININ ÜMUMİ HƏCMİ
3 000 000 KQ. YAXINDIR.**

**HESABLAMA**

- **Azərbaycanda 2020-ci ildə 100,3 min ha pambıq əskilmişdir.**
- **96 min ha-da lifsiz toxum, 6 min yaxın ha-da isə lifli toxum əkini həyata keçirilmişdir.**

**BİR HEKTARA OLAN TOXUM SƏRFİYYƏTİNİ HESABLASAQ:**

**~ 2,5 – 2,6 MLN kq lifsiz toxum istifadə edilib**

**~ 400 – 450 MİN kq lifli toxum istifadə edilib**

# TOXUMUN BAZARININ PUL VAHİDİ İLƏ HƏCMİ

**Mövcud qiymətlərlə təxmini olaraq**
**bazar həcmi <u>15 – 16 mln AZN dir</u>**

- **Bazarda lifsiz toxumlar ancaq Türkiyədən gətirilir və bazar qiyməti kg başına 5 AZN – 5,5 AZN arasındadır.**

  **Lifsiz toxum bazarının həcmi 14 – 15 mln AZN dir.**

- **Lifli toxumun qiyməti 2,5-3 AZN arasındadır**

  **Lifli pambıq toxumu bazarının həcmi 1,5 mln AZN dir.**

# NƏTİCƏ



# SWOT ANALİZ

**Güclü**

- Bazarda demək olar ki, bütün pambıq əkini lifsiz toxum sortları ilə aparılır
- Yerli istehsal toxumun qiyməti xaricdən gəlmə toxumlarla nisbətən daha ucuz olacaq
- Yerli şirkətin fermerlərin ehtiyaclarının tam anlaması

**Zəif**

- Toxumların distribusiyası üçün hazır satış kanallarının olmaması
- Fermer təsərrüfatları və pambıq zavodları ilə əlaqənin zəif olması
- Azərbaycanda lifsiz toxum seleksiya müəssisələrinin olmaması

**Fürsət**

- Aqronom və sair xidmətlərin göstərilməsi
- Pambıqçılığa olan dövlət dəstəyi (subsidiya və s.)
- Güclü yerli seleksiya elmi müəssisələrin olması
- Fermerlər artıq bu məhsulu tanıyırlar və tanıtım işlərinə ehtiyac yoxdur

**Təhdid**

- Bazarda digər oyunçuların olması
- Bazarda olan oyunçunun geniş şəbəkəsinin olması
- Xarici növlərin seleksiya dəstəyinin güclü olması
- Biznesin fəsildən asılılığı

# NƏTİCƏ

**Lifsiz toxumun Azərbaycanda istifadəsi**

AR Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən səpilən pambıq toxumunun 95% lifsiz toxumlar vasitəsi ilə aparılır. Fermerlər artıq bu məhsul ilə tanışdırlar və məhsuldarlığın yüksək olması onları məmnun edir. Əkilən sortlar əsasən Türkiyə istehsalıdır (MAY-344 və MAY-455 sortları). Yerli fermerlər 4 ildən artıqdır ki, bu növ toxumu istifadə edirlər. Onlar bütün aqrotexniki qaydaların yerinə yetririlməsini uğurla sınaqdan keçiriblər.

**Pambıqçılığa dövlət dəstəyi**

Pambıq dövlət üçün olduqca vacib və strateji məhsuldur. Azərbaycanda pambıqçılıq hətta qanunvericilik (2010-cu il 11 may tarixli, 1012-IIIQ nömrəli qanun) səviyyəsində tənzimlənir. Qanunun olması dövlət üçün vacibliyin əsas indeksidir.

Hal hazırda pambıq becərilməsi üçün bir sıra dövlət dəstək proqramları mövcuddur. Bu dəstək proqramları fermerlərə maliyyə, inzibatı, aqrotexniki və s. dəstəyin göstərilməsini nəzərdə tutur. Bu dəstəyin nəticəsidir ki, son 3 ildə pambıq lifi istehsalı artır.

# NƏTİCƏ

**Yeni İştirakçının bazara daxil olması yolları:**

Bazara daxil olma iki yol ilə baş verə bilər.

**Birinci yol** – Fermerlərə eyni və ya fərqli xarici sortların gətirilməsi. Bu yol asan yol olsa da, yeni oyunçu üçün çətin olacaq. Belə ki, bazarda olan digər oyunçularla eyni qaydada işləməyə məcbur olacaq və yeganə rəqabət yolu qiymət endirmək olacaq. Bu isə gəlirliyin az olması və biznesin dayanıqlı olmaması deməkdir.

**İkinci yol** – Azərbaycanda yeni lifsiz toxum sortlarının yaradılıb satılması. Bu yol daha uzun yol olsa da, daha dayanıqlı və etibarlı yoldur. Burada məhsulu idarəetmə tamamən şirkətin əlində olacaqdır. Digər üstünlük isə, Azərbaycanda pambıq sortlarının yetişdirilməsində elmi bazanın olmasıdır. Bu o deməkdir ki, zaman keçdikcə şirkətin bazardakı vəziyyəti daha stabil olacaqdır. Digər üstünlüyü isə şirkətin xarici faktorlardan asılı olmamasıdır. Asılılıq müxtəlif formada ola bilər, məs. qiymət, təchizatçının ehtiyatları, valyuta ilə alınma və s.

**Satışın təşkili**

Pambıq toxumu satışı həm ənənəvi (mağazalarda), həmdə pambıq zavodları vasitəsi ilə həyata keçirilir. Əsas satış kanalı kimi pambıq zavodları ilə biznes əlaqələrin qurulmasıdır. Bunun səbəbi odur ki, fermerlər bütün məhsulu həmin zavoda satmaqla öhdəliyi götürdükdə, zavod onların bütün xərclərini öncədən qarşılayır və məhsul təhvil verilən zaman həmin məbləği ondan geri alırlar.

# NƏTİCƏ

**Nəticə olaraq onu söyləmək olar ki, şirkət aşağıdakı şərtlərə riayət edərsə bazarda uğurlu ola bilər:**

- ✓ **Satılacaq sortlar ən müasir sortlar olmalıdır və fermerlərə daha çox məhsul toplamağa imkan verməlidir;**
- ✓ **Satış ilə birlidə aqrotexniki dəstək olmalıdır. Lifsiz pambıq toxumları səpilən zaman xüsusi avadanlıq təqdim etməlidir;**
- ✓ **Sortlara qulluq yerli şəraitə tam uyğun olmalıdır;**
- ✓ **Biznes effektiv olsun deyə, satılan toxum sortlarına qulluq üçün gübrə satışı da təşkil etməlidir;**
- ✓ **Fermerlərə aqronom dəstəyi və məsləhət xidməti də təşkil etməlidir;**
- ✓ **Xüsusi maliyyə dəstə proqramları tətbiq etməlidir;**
- ✓ **Toxumlar dövlət akkreditasiyasından keçməlidir.**

**Yuxarıda göstərilənləri ümumiləşdirsək, lifsiz toxum təchizatçısı ancaq toxum satmaqla deyil, pambıqçılıqla əlaqəli «tam xidmət paketi» sistemini istifadə etməlidir. Bu halda həmin müəssisə bazarda uğurlu ola bilər.**


TƏŞƏKKÜR EDİRİK